**Azərbaycan Respublikası Təhsil Nazirliyinin**
**“24” avqust 2016-ci il tarixli 579 nömrəli əmri ilə**
**təsdiq edilmiş Əsasnamənin 4 saylı əlavəsi**

## “Elektron Təhsil” Respublika müsabiqəsinə “Məktəb” istiqaməti üzrə təqdim edilən işlərin nominasiyalar üzrə qiymətləndirmə meyarları

### “Ən zəngin məzmunlu məktəb saytı” nominasiyası üzrə təqdim edilən işlərin qiymətləndirmə meyarları

- yerləşdirilən informasiyaların aydın, dəqiq olması, istinad olunmuş mənbələr qeyd olunmaqla müəllif hüquqlarının qorunması;
- xəbərlərin dərc edilməsinin davamlı olması;
- ziyarət edilmə sayının çox olması (müsabiqə başladığı dövrə qədər);
- videoqalereya, fotoqalereya və digər bölmələrdə materialların mütəmadi yerləşdirilməsi;
- məktəbin İKT sahəsi üzrə nailiyyətləri (müəllimlərin İKT bacarıqlarını əks etdirən sertifikatları, İKT üzrə təlimçi olan, müsabiqələrdə iştirak edən müəllimlərin (nominant, fərqlənən və qaliblər və s.) adlarının qeyd edilməsi;
- məktəbin ümumi nailiyyətlərinin saytda əks olunması;
- dərsliklər, tapşırıqlar bölməsində məktəb müəllimlərinin hazırladıqları elektron resursların yerləşdirilməsi.